Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

# Mədəniyyətimiz

№ 12 (1380) 19 yanvar - 20 yanvar 2017-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASIYA VASITƏLƏRININ
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Mədəniyyətimizin təbliğatçısı - Heydər Əliyev Fondu

**Azərbaycanın zəngin mədəni irsinin dünya ictimayyətinə çatdırılması hökumətin prioritet hesab etdiyi sahələrdəndir. Bu istiqamətdə həm diaspor təşkilatlarımız, həm Mədəniyyət və Turizm Nazirliyimiz və eyni zamanda Heydər Əliyev Fondu davamlı addımlar atır.**

> **"Mədəniyyət mərkəzlərinin yenidən qurulması böyük əhəmiyyət daşıyır. Bütün başqa layihələrlə bərabər, bu sahədəki işlər də təqdirəlayiqdir".**
>
> ***İlham Əliyev,***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Heydər Əliyev Fonunun bu istiqamətdə gördüyü işlərə nəzər salanda aydın olur ki, Fondun çoxşaxəli fəaliyyətinin əsasını təşkil edən mədəni irsimizin tanıdılması istiqamətində ciddi nəaliyyətlər əldə olunub. Belə ki, artıq dünyanın bir sıra ölkələrində mədəniyyət günləri keçirilir. Azərbaycan muğamı dünyada qəbul olunur. Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın birinci xanımı, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın tükənməz enerjisi sayəsində həyata keçirilən işlər nəticəsində muğam sənəti UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına daxil edilmişdir. Bu siyahını İçərişəhər Tarixi-Memarlıq Kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, Azərbaycan xalçaları, milli aşıq sənəti, həmçinin Novruz bayramı da davam etdirmişdir. Bakıda Beynəlxalq Muğam Mərkəzi inşa olunmuş, "Qarabağ xanəndələri" musiqi albomu nəşr edilmiş, muğam televiziya müsabiqələri keçirilmişdir.

Heydər Əliyev Fondu bir çox beynəlxalq musiqi festivallarının da təşkilatçısıdır. Bu sırada Qəbələ Beynəlxalq musiqi festivalı öz möhtəşəmliyi və əhatə dairəsinin genişliyi ilə fərqlənir. "Eurovision-2011" beynəlxalq mahnı müsabiqəsində qalib gələn Azərbaycan Heydər Əliyev Fondunun xidmətləri sayəsində 2012-ci ildə 57-ci dəfə keçirilən müsabiqəni uğurla reallaşdırdı, Qərb ilə Şərqin qovuşuğunda yerləşən ölkəmiz bir daha dünyanın diqqət mərkəzinə çevrildi.

Heydər Əliyev Fondunun beynəlxalq əlaqələrinin uğurlarıdır ki, akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 100 illik yubileyləri UNESCO səviyyəsində qeyd olunub, Xalq Artisti, bəstəkar Rafiq Babayevin yaradıcılığını əhatə edən musiqi albomu hazırlanıb, dünya şöhrətli Azərbaycan rəssamı Tahir Salahovun Parisdə fərdi sərgisi təşkil edilib. Fransanın sənət nümunələrinin toplandığı "Fransız inciləri" kolleksiyası Bakıda nümayiş olunub. Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxtda Müasir İncəsənət Muzeyi açılıb, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi fəaliyyətə başlayıb, xalqımızın Ümummilli Liderinin 90 illik yubileyi ərəfəsində Heydər Əliyev Mərkəzində Heydər Əliyev Muzeyinin açılışı olub.



### *Azərbaycan Mədəniyyəti Fransada*

Fransanın paytaxtı Parisin mərkəzində - Eyfel qülləsinin yaxınlığında yaradılan Azərbaycan Mədəniyyət Mərkəzi ölkəmizin dünya mədəniyyətinin paytaxtında təbliğ olunması istiqamətində atılan ən mühüm addımlardan biridir. Xüsusi əhəmiyyəti ilə seçilən bu mədəniyyət hadisəsi dünya gündəminə mədəniyyətlərarası və sivilizasiyalararası dialoq platformasının aparıcı qüvvəsi kimi daxil olan Azərbaycanın ən yüksək səviyyədə tanıdılmasına xidmət edir. Ölkəmizin qədim və zəngin tarixinə, mədəniyyətinə dair eksponatların bir məkanda təqdim edildiyi mərkəz Parisin mədəni həyatında fəallığı ilə seçilən Azərbaycanın bu sahədə həyata keçirdiyi fəaliyyətin rəsmiləşdirilməsinə də böyük imkanlar açır. Azərbaycan Mədəniyyət Mərkəzi həm də ölkəmizə sonsuz marağı təcəssüm etdirir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizin xaricdə tanıdılması istiqamətində həyata keçirdiyi tədbirlərin mühüm hissəsi Parisin mədəni həyatı ilə bağlıdır. Yeni mədəniyyət ocağı isə bu sahədə işlərin daha da gücləndirilməsinə, vahid mərkəzdən idarə olunmasına və daha səmərəli fəaliyyətin qurulmasına geniş imkanlar açır.

Mərkəzdə müxtəlif görüşlərin, tədbirlərin keçirilməsi üçün hər cür imkan yaradılmış, otaqlar lazımi avadanlıqla təmin olunub. Mərkəzin əsas özəlliyi burada Azərbaycan mədəniyyətinə dair nümunələrin sərgilənməsidir. Müxtəlif ekspozisiya zallarının yaradıldığı mərkəzdə Azərbaycan tarixini əks etdirən eksponatlar təqdim olunur. Arxeoloji tapıntılardan tutmuş qədim pullara, silahlara, misgərlik məmulatlarına qədər hər şey burada Azərbaycanın qədim və zəngin tarixindən xəbər verir.



Onu da bildirək ki, Azərbaycan xalçaları mərkəzdəki ekspozisiyanın ən qiymətli inciləri sırasındadır. Milli xalçaçılığımızın bütün istiqamətlərinin nümunələrinin təqdim edildiyi mərkəzdə yaşı yüz illərlə ölçülən xalça və xalça məmulatlarının geniş çeşidi təcəssüm tapmışdır. Burada Azərbaycan xalçaçılıq məktəblərinin tarixi və keçdiyi inkişaf yolları barədə məlumat verilir. Bundan başqa, Azərbaycan miniatürləri də Şərqin bir parçası olan ölkəmizdə qədimlərdən yaranıb formalaşan rəssamlıq sənəti - miniatür məktəbi barədə ətraflı məlumat verir. Zinət və müxtəlif bəzək əşyalarının, xalq incəsənətinin bütün istiqamətlərinə dair nümunələrin, taxta üzərində oyma sənətinin təqdim olunduğu mərkəzin ekspozisiyasında Azərbaycan milli geyimləri də diqqəti cəlb edir. Milli ruhu özündə təcəssüm etdirən kuklalar, büründən hazırlanan heykəllər də maraq doğurur.

**Azərbaycan Mədəniyyət Mərkəzində yaradılan kitabxanada fransız dilinə tərcümə edilən Azərbaycan ədəbiyyatı külliyyatı təqdim olunur. Bundan başqa, mədəniyyətimizin müxtəlif qollarına dair geniş ədəbiyyat toplusunun cəmləndiyi kitabxana mərkəzə gələnlərdə ədəbiyyatımız, rəssamlıq sənətimiz və musiqimiz haqqında, ümumiyyətlə incəsənətin digər növləri barədə məlumatların əldə edilməsinə imkan verir.**

**(ardı gələn sayımızda)**

***Ədil Ədilzadə***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ